# Böyük Zəfər İlham Əliyevin şah əsəridir

**Ulu Öndər Heydər Əliyevin 2000-ci il dekabrın 28-də "Yeni əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına tarixi müraciəti oldu və bu müraciət ötən ilin icmalından daha çox ötən milleniumun hesabatı və yeni minilliyin yol xəritəsi idi.**

Bütün sahələrdə islahatların başladığı, ölkənin yenicə inkişaf mərhələsinə qədəm qoyduğu çox mürəkkəb bir dövr olmasına baxmayaraq, Ulu Öndər bu çıxışında kifayət qədər nikbin idi. Böyük Heydər Əliyev yalnız bir prinsipial şərt qoyurdu - "Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək".

Ömrünün 60 ilini ən mürəkkəb situasiyalarda və ən ali vəzifələrdə xalqına xidmətə həsr etmiş, Azərbaycanı ikinci dəfə yoxdan var edən qurucu lider və ən əsası zamanın gərdişini doğru qiymətləndirməyi bacaran kifayət qədər təcrübəli və müdrik insan olaraq Ulu Öndər əsassız nikbinlik vədlərindən çox ucada dayanan şəxsiyyət idi. Biz ozamankı çox çətin bir keçiddə Ulu Öndərdə nikbinlik, xalqın gələcəyinə əminlik yaradan hisslərin nədən, daha doğrusu, kimdən qaynaqlandığını üç il sonra, dahi Liderin Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciəti ilə anlamış olduq. Dahi Heydər Əliyev müraciətində yazırdı: "Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan xalqının Heydər Əliyevə inamı, etimadı sonsuz idi. Çünki Heydər Əliyev bu xalqı sevirdi, Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr məhz Ulu Öndərin hakimiyyəti illərində müşahidə olunmuşdu. Təsadüfi deyil ki, Azərbaycan xalqının başına gələn bütün bəlalar məhz Heydər Əliyevin olmadığı 5 illik dövrdə yaşanmışdı. Bu mənada xalq İlham Əliyevə inamla və səmimiyyətlə qucaq açdı. Cənab İlham Əliyev müraciətdən iki həftə sonra, 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə seçicilərin 76 faizinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Əslində, İlham Əliyevin adı Azərbaycan seçicisi üçün yad deyildi. Xalq hələ sovet dönəmində İlham Əliyevi həmişə yüksəksəviyyəli dövlət tədbirlərində, sahələrdə kolxozçularla görüşdə, ümumiyyətlə, hər zaman atasının yanında görməyə alışmışdı. Yəni fəhmli sovet azərbaycanlısı İlham Əliyevin Heydər Əliyev məktəbində yetişməkdə olduğunu görmüşdü. Sirr deyil ki, biz sovet dövründə müttəfiq respublikalarla birgə, dinc və mehriban şəkildə yaşasaq da, aramızda görünməz bir rəqabət də var idi və Heydər Əliyevin oğlunun bu uğuru sanki sovet azərbaycanlısını bu gizli "rəqabət"də bir addım önə çıxardı. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla realizəsində əsas pay bu proseslərin memarı kimi məhz ARDNŞ-nin vitse-prezidenti cənab İlham Əliyevin idi. Azərbaycan cəmiyyəti bunu da görür və anlayırdı. Eyni zamanda cənab İlham Əliyevin qanunverici orqanın - Milli Məclisin deputatı, xüsusən AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri, o cümlədən AŞ PA-nın vitse-prezidenti kimi uğurlu fəaliyyəti artıq onun peşəkar siyasətçi, uğurlu dövlət xadimi və milli maraqların dönməz müdafiəçisi olduğu heç kimdə şübhə doğurmurdu.

Beləliklə, Azərbaycan 2003-cü ildə tamamilə yeni bir eraya qədəm qoyaraq özünün ən qüdrətli dönəminə doğru inamla irəliləməyə başladı. Yol xəritəsi isə kifayət qədər aydın idi.

Prezident İlham Əliyev iqtidarının əsas diqqətçəkən xüsusiyyətlərindən biri də dayanıqlı inkişafın dövlət siyasətinin mütləq prioritetinə çevrilməsi oldu. Daxili sabitlik, xalq-iqtidar birliyi dövlət başçısına çoxşaxəli islahatları reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi. Nəticədə son 20 ildə bütövlükdə dövlətçilik tariximizdə olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artırıldı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi. Prezident İlham Əliyevin siyasi lider kimi əsas xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, şaxələndirilmiş fəaliyyəti peşəkarcasına idarə edir və nəticədə inkişaf bütün sahələri əhatələyə bilir. Bu isə konstitusion səviyyədə bəyan olunmuş niyyətlər və dövlətin ali məqsədlərinə doğru inamlı hərəkətlərin uğurla hasilinə səbəb olur.

Əlbəttə, lider amilinə baxış milli mental düşüncə və təfəkkür tərzinə görə dəyişir. Bu mənada Qərbin uğurlu siyasi xadimlərinin Şərqdə, Şərqin tarix yazan liderlərinin isə Qərbdə lazımi formada qiymətləndirilməməsinə çoxsaylı tarixi nümunələrdə və hətta müasir dövrdə, qloballaşma şəraitində belə rast gəlirik. Lakin cənab İlham Əliyev Heydər Əliyevdən sonra həm də daha sərt şərtlərdə, ictimai nəzarətin radikallaşdığı, neonasizmin, neokolonizmin gücləndiyi və Şərq-islam dünyasına yenidən yuxarıdan baxmaq cəhdlərinin artdığı bir şəraitdə bütün qütblərdə qəbul olunan yeganə azərbaycanlı siyasi xadimdir.

Tarixdə ilk dəfə məhz cənab İlham Əliyev coğrafi mövqeyimizi Azərbaycan üçün kapitala çevirib. Bu mürəkkəb konfiqurasiyanın formalaşması isə Azərbaycana regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələrdə aparıcı rola sahib olmaq, bütün proseslərdə milli maraqlarımızla hesablaşılmasını təmin edib. Cəmi 30 il əvvələ qədər xəritədə belə yeri bilinməyən Azərbaycan məhz cənab İlham Əliyevin sayəsində artıq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və müddəti dövründə sədrlik edən, habelə dünyanın ikinci böyük təşkilatı Qoşulmama Hərəkatına hazırda rəhbərlik etməkdə olan qlobal lider subyektlərdəndir. Üstəlik, cənab İlham Əliyev bəşəri dəyərləri və beynəlxalq hüququn prinsiplərini rəhbər tutmaqla, Azərbaycanın beynəlxalq siyasətə təsir rıçaqlarını genişləndirməkdədir. Bu prosesdə Prezidentin şaxələndirilmiş enerji siyasəti ayrıca qızıl səhifə hesab olunmalıdır.

Təbii ki, müstəqillik tarixində Azərbaycanın qarşısında əsas problem Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin və separatizmin nəticələrinin aradan qaldırılması idi. Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi kimi: "Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları durursa, digər qütbündə, - nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, - bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, həddsiz-hüdudsuz şəxsi ambisiyaları durur və məhz bu baxımdan bu gün də biz bu ağılsız siyasətin nəticələrini aradan qaldıra bilmirik". Ulu Öndər fikrini belə izah edirdi: "Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq".

Möhtərəm Prezident də Qarabağ məsələsində məhz Ulu Öndərin direktivlərini rəhbər tutdu. Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsi milli nüvə olaraq müəyyən edildi, bu məfkurə ilə həyata keçirilən sistemli sosial və siyasi tədbirlərin qanunauyğun nəticəsi kimi milli vəhdət tam bərqərar edildi.

Ötən 20 illik dövrü təhlil etsək, aydın şəkildə müşahidə edə bilərik ki, Prezident İlham Əliyev hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın və Şərqi Zəngəzurun azadlığına bir addım daha yaxınlaşdırıb. Cənab İlham Əliyev ilk növbədə həyata keçirdiyi məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlərlə ölkəmizi iqtisadi cəhətdən tam müstəqil olan suveren gücə çevirməyə nail oldu. Güclü iqtisadiyyat isə hərbi-müdafiə qüdrətinin rəhnində dayanan amildir. Prezident İlham Əliyevə Azərbaycanı regionun hərbi-siyasi gücünə çevirərək, 30 illik işğal faktoruna cəmi 44 günə son qoyaraq milli missiyanı tamamlamaq, eyni zamanda Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşacaq qədər gücləndirmək, 1200 adda hərbi təyinatlı məhsul istehsal edən nəhəng müdafiə sənayesi infrastrukturu yaratmaq üçün cəmi 17 il lazım oldu. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. İlk növbədə bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyev iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbul etməyə məcbur oldular. Heç şübhəsiz ki, effektiv siyasət və xalqın dəstəyi ilə tarixi ədalətin bərpa olunması, Azərbaycanın qalib ölkəyə çevrilməsi Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Prezident İlham Əliyev Zəfərimizin nəticələrinin qorunması, bu reallığın hər kəs tərəfindən qəbul edilməsi istiqamətində fəaliyyəti ilə də tarix yazdı. "Qarabağ Ermənistandır nöqtə" deyən Ermənistan özü Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərdə ifadə etməyə məcbur oldu.

Cənab İlham Əliyev Azərbaycanı tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaltdı. Məhz İlham Əliyevin sayəsində Azərbaycan özünün ən qüdrətli çağına qədəm qoydu. Bu həm də beynəlxalq hüququn təntənəsi idi.

23 saatlıq lokal antiterror tədbirləri ilə Prezident İlham Əliyev dünyada separatizmlə mübarizədə ən effektiv, real və köklü nəticə nümunəsi ortaya qoymaqla bu istiqamətdə presedent yaratdı.

Böyük Qələbənin nəticəsində Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq da Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasının tükənməz aktuallığını təmin edir. Bütün işlər Azərbaycanın öz imkanları hesabına həyata keçirilir və bütün dünya bir daha görür ki, cənab İlham Əliyev necə qüdrətli bir dövlət qurub. Azərbaycan yeni minilliyin çağırışları fonunda qlobal miqyasda rolunu artırmaqda, dünyada söz sahibi kimi özünü təsdiq etməkdə davam edir.

Əlbəttə, bu reallığı görmək istəməyən beynəlxalq subyektlər var və anlayırıq ki, bundan sonra da olacaq. Lakin bir nəfər kimi cənab İlham Əliyevin ətrafında birləşən Azərbaycan xalqı əmindir ki, artıq güclü-qüdrətli Azərbaycan üçün böhtanlar, qətnamələr, qarayaxmalar önəm daşımır və qalib Azərbaycan hər kəsə layiq olduğu formada cavab verməyə qadirdir. Çünki cənab İlham Əliyev məhz Heydər Əliyevin arzu etdiyi, uğuruna ömrünü qurban verdiyi qüdrətli Azərbaycan dövlətçilik modelini realizə edə bilib.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.- 13 oktyabr.- S.6.